“Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir”.

Heydər ƏLİYEV



AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 iyun 2015-ci il № 44 (1960) Qiyməti 25 qəpik

## Rəsmi xronika

*✓ Birinci Avropa Oyunları ərəfəsində paytaxt sakinləri və şəhərimizin qonaqları üçün Bakıda Heydər Əliyev Fondunun layihəsi olan yeni mədəniyyət obyekti fəaliyyətə başladı. Dövlət Bayrağı Meydanı ərazisində Daş salnamə muzeyinin açılışı oldu.*

*İyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva muzeylə tanış oldular.*

*Dövlətimizin başçısı və xanımına muzey haqqında məlumat verildi. 1921-ci ildə inşa olunan və vaxtilə neft mədənlərinin enerji təminatı üçün nəzərdə tutulan elektrik stansiyasının binası bərpa işlərindən sonra muzey kimi fəaliyyət göstərəcək. Azərbaycanda mənəvi həyatın ən arxaik xüsusiyyətləri məhz daş plastika ənənələrində saxlanılıb.*

*Muzeyi ziyarət edən qonaqlar sərgidə təqdim edilən eksponatlar vasitəsilə Azərbaycanda daş plastika ənənələrinin tarixi inkişaf və təkamül mərhələlərini əyani şəkildə izləyə biləcəklər.*

* * *

*✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də Azərbaycan Evində yaradılan şəraitlə tanış olublar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycan Evində birinci Avropa Oyunları zamanı hər axşam yarışların nəticələri, idmançıların uğurları müzakirə ediləcək, qaliblərin şərəfinə bayramlar təşkil olunacaq. Müasir üslubda qurulan bu məkan əslində hər bir Olimpiadanın ayrılmaz hissəsi hesab edilir. Burada idmançılara, şəhərimizin qonaqlarına əyləncəli proqramlar təqdim ediləcək.*

*Azərbaycan Evində qonaqların həm istirahəti, həm də onların öz sevimli komandaları və idmançılarının uğurlarının sevincini bölüşmək üçün hər cür şərait yaradılıb.*

* * *

*✓ İyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bayıl bulvarının açılışında iştirak ediblər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Bayıl bulvarının inşasına 2013-cü ildə başlanılıb. Layihə çərçivəsində bulvarda işlər yüksək səviyyədə həyata keçirilib. Ümumi sahəsi 24 hektar olan yeni istirahət mərkəzinin uzunluğu 2,3 kilometrdir. Burada 16 hektar yaşıllıq zonası yaradılıb.*

*Bir neçə gündən sonra paytaxtımızda əlamətdar və tarixi idman bayramına - Birinci Avropa Oyunlarına start veriləcək. Bayıl bulvarının məhz dünyanın diqqət mərkəzində olan Birinci Avropa Oyunları ərəfəsində istifadəyə verilməsi çox önəmlidir. Ölkəmizə gələn turistlər Bakıda aparılan abadlıq-quruculuq və yenidənqurma işlərinin miqyası ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər.*

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın bölgələrinə və əfsanəvi Neft Daşlarına səyahətini başa çatdıran “Bakı-2015”-in məşəli paytaxta gətirildi

## Prezident İlham Əliyev Dənizkənarı Milli Parkdakı "Sadko" limanında məşəli qəbul etdi



***Avropa idman tarixində yeni səhifə açacaq "Bakı-2015"-in başlamasına sayılı günlər qalır. Birinci Avropa Oyunlarının aprelin 26-da qədim od məbədi olan "Atəşgah"dan start götürən məşəli Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq 60 rayonun sakinlərinə bu Oyunların ruhunu çatdırıb.***

Avropa Oyunlarının yoluna işıq saçan məşəl bölgələrə və əfsanəvi Neft Daşlarına səyahətini başa çatdırdıqdan sonra iyunun 7-də paytaxt Bakıya gətirilib.

Məşəli Bakının Dənizkənarı Milli Parkındakı "Sadko" limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbul edib.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri elektromobillə "Sadko" limanına gəldilər.

Burada şəhər ictimaiyyətinin nümayəndələri, Bakının qonaqları, idmançılar, Avropa Oyunlarının könüllüləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Məşəli Neft Daşlarından Bakıya gətirən kater limana yan aldı.

Azərbaycan Prezidenti İlham Əliyev neftçi Nahid Nuriyevdən məşəli qəbul etdi.

Dənizkənarı Milli Parka toplaşanlar məşəllə irəliləyən dövlətimizin başçısını "Yaşasın Azərbaycan!", "Prezident İlham Əliyevə eşq olsun!", "Birinci Avropa Oyunlarına uğurlar!" nidaları ilə alqışladılar.

Azərbaycan Prezidenti Birinci Avropa Oyunlarının məşəlini Böyük Vətən müharibəsinin veteranı Fatma Səttarovaya təqdim etdi.

Bununla da Birinci Avropa Oyunlarının məşəlinin Bakı estafeti başladı.

Qürurverici çoxsaylı idman yarışlarını özündə birləşdirən Birinci Avropa Oyunlarının məşəlinin Bakı marşrutunun növbəti məkanı möhtəşəm Ağ Şəhər bulvarı oldu. Çoxsaylı məşəlçilərin bir-birinə ötürdükləri "Bakı-2015"-in məşəli estafet boyunca böyük coşqu ilə qarşılandı. Ağ Şəhər bulvarına səyahətini başa çatdıran məşəl yenidən paytaxtın mərkəzinə doğru irəlilədi.

Paytaxtın Neftçilər prospekti daha izdihamlı idi. "Bakı-2015"-in məşəlçisi şərəfinə layiq görülmüş xalq artisti Arif Babayev burada məşəli Azərbaycanın birinci xanımı, ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya təqdim etdi.

Süvarilərin müşayiəti, bu unudulmaz anların sevincini yaşayan çoxsaylı insanların sürəkli alqışları altında birinci xanım Mehriban Əliyeva məşəli Montröy Beynəlxalq caz festivalının qalibi, əməkdar artist, "Zirvə" dövlət mükafatı laureatı, pianoçu və bəstəkar İsfar Sarabskiyə ötürdü.

Sonra məşəli Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva daşıdı.

Sərbəst güləş üzrə Avropa çempionu, yeniyetmələrin II Yay Olimpiya Oyunlarının qızıl medalçısı İqbal Hacızadədən "Bakı-2015"-in məşəlini Arzu Əliyeva qəbul etdi.

Sərbəst güləş üzrə dünya və Avropa çempionatlarının qalibi Hacı Əliyev məşəli növbəti estafetçiyə - Heydər Əliyevə təqdim etdi.

"Bakı-2015"-in məşəlini bir-birinə ötürən məşəlçilərin estafeti Dövlət Bayrağı Meydanından və "Baku Crystal Hall"dan keçərək açılış mərasiminə qədər gecələr saxlanılacaq məkana - Qız Qalasına gətirildi. Burada məşəli sonuncu estafetçi - Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti, Olimpiya çempionu Namiq Abdullayevdən qəbul etdilər.

Ümumilikdə şəhər boyunca məşəl 16 kilometr məsafədə 100 məşəlçi tərəfindən daşındı.

Azərbaycan Respublikasının gənclər və idman naziri, "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov dedi: "Məşəl səyahəti ötən altı həftə ərzində Azərbaycan ictimaiyyətinin Avropa Oyunları barədə məlumatını artırıb. Bu axşam keçirilən şənliklərdə digər bölgələrin əhalisi kimi, Bakı sakinlərinin və şəhərimizin qonaqlarının da böyük maraqla iştirak etdiyini görmək möhtəşəm duyğular yaradır. Açılış mərasimi ərəfəsində paytaxt Bakıda məşəl səyahəti insanlarda maraq hissini gücləndirir. Əminəm ki, növbəti dörd gün ərzində Bakının bütün füsunkarlığını bu mərasimlərdə bir daha əyani görəcəyik".

**AZƏRTAC**

# “Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında” sərəncamdan irəli gələn məsələlər müzakirə edilib

***İyunun 5-də Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov mətbuat orqanlarının rəhbərləri ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, Əli Həsənov görüşün əsas məqsədinin bir neçə gün əvvəl Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı sərəncamdan irəli gələn məsələləri müzakirə etmək olduğunu deyib. Sərəncamın önəmindən danışan Əli Həsənov bildirib ki, bu, dövlətimizin başçısının milli mətbuatımıza və jurnalistikamıza, müstəqil Azərbaycanın inkişafında, xalqımızın milli mənəvi dəyərlərinin qorunmasında və təbliğində medianın oynadığı rola verdiyi önəmin göstəricisidir.

Əli Həsənov sərəncamda Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Mətbuat Şurasına yubileylə bağlı Tədbirlər Planının hazırlanması və həyata keçirilməsinin tapşırıldığını xatırladıb.

Prezidentin köməkçisi deyib: "Milli mətbuatımızın 130 və 135 illik yubileylərinin keçirilməsini nəzərə alsaq, bu Tədbirlər Planının hazırlanmasında kifayət qədər təcrübənin olduğunu deyə bilərik. Bugünkü görüşdə də mətbuatın 140 illiyinin qeyd edilməsi ilə bağlı Tədbirlər Planının hazırlanması məsələsini birgə müzakirə etmək qərarına gəldik".

Əli Həsənov Azərbaycan milli mətbuatının yaranmasının 140 illik yubileyinin ölkəmizdə geniş qeyd ediləcəyini diqqətə çatdırıb.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi qeyd edib ki, bir neçə gündən sonra ölkəmizin həyatında əlamətdar tarixi hadisə baş verəcək - "Bakı-2015" ilk Avropa Oyunları başlayacaq. Birinci Avropa Oyunlarının tarixinin Azərbaycandan başlaması mühüm hadisədir. O, ilk Avropa Oyunları ilə bağlı hazırlıq işlərinin kütləvi informasiya vasitələri tərəfindən yüksək səviyyədə, peşəkarcasına işıqlandırıldığını vurğulayıb, buna görə təşəkkürünü bildirib. Əli Həsənov deyib: "Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçildiyi, postsovet ölkələri arasında dünyanın kosmik ailəsinə birincilər sırasında qoşulduğu kimi, Avropa Oyunlarının da ilk dəfə Bakıda keçirilməsi tariximizə yazılacaq önəmli hadisədir".

Görüşdə çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov və Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli Azərbaycan dövləti tərəfindən mətbuatın inkişafına göstərilən diqqət və qayğıdan bəhs ediblər. Diqqətə çatdırılıb ki, ölkəmizdə milli mətbuatın yubileyinin qeyd edilməsi artıq ənənə halını alıb. Bu ənənənin əsasını ümummilli lider Heydər Əliyev qoyub və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Milli mətbuatın yubileyi ilə bağlı imzalanan sərəncamlar hər zaman jurnalistlərin bayramına çevrilir. Dövlətimizin başçısının imzaladığı son sərəncamda Azərbaycan mətbuatının 140 illik tarixinə nəzər salınır, medianın indiki və gələcək durumu, demokratik proseslərdə rolu diqqətə çatdırılır.

Vüqar Səfərli, həmçinin milli mətbuatın yaranmasının 140 illiyi münasibətilə keçirilən fərdi jurnalist yazıları müsabiqəsi haqqında məlumat verib.

Sonra sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı bir sıra təkliflər irəli sürülüb, müzakirələr aparılıb. Mətbuat Muzeyinin yaradılması, Mərkəzi Asiyada və digər ölkələrdə Azərbaycan mətbuatının izlərinin araşdırılması və bununla bağlı kitabçanın hazırlanması, "Əkinçi" qəzetinin 140 illik yubileyinə dair xatirə medalının təsis edilməsi və s. məsələlər səsləndirilən təkliflər arasında olub.

*Ön xətdən reportaj*

# “Bütün cəhətlərdən düşməndən üstünük”



***Baş leytenant İbrahim Zeynalov 2012-ci ildən zabit kimi ordumuzun sıralarında xidmət edir. Üç ildən çoxdur ki, səngər həyatı yaşayır. Zabit peşəsini seçdiyindən, Vətən müdafiəçisi olduğundan qürur duyur.***

- Bu gün qarşımızda müqəddəs vəzifə dayanır, - deyə baş leytenant bizimlə söhbətə başladı. - Ən başlıca məqsədimiz erməni işğalçılarının tapdağı altında olan torpaqlarımızı azad etməkdir. Bu vəzifənin öhdəsindən bacarıqla gəlmək üçün daim döyüş hazırlığımızı artırırıq. Ordumuz gündən-günə güclənir, qüvvətlənir. Ən müasir silahlarla təchiz olunmuşuq. Bütün cəhətlərdən düşməndən üstünük. Erməni qəsbkarlarını asanlıqla məğlub edib, xalqımıza qələbə xəbəri çatdıracağıq.

Baş leytenant İbrahim Zeynalovla səngərləri gəzib yurdumuzu qoruyan əsgərlərlə görüşdük.

Əsgər Şirxan Bəylərov dedi ki, səngərdə düşmənlə üz-üzə dayanmaqdan qürur duyur. "Erməni işğalçıları atəşkəs rejimini pozmağa cəhd gostərəndə, tez bir zamanda onları susdururuq. Düşmən hər addımda gücümüzü, qüdrətimizi hiss edir. Hiss edir ki, qarşısındakı bu səngər, bu torpaq alınmaz bir qaladır", - deyir əsgər.

Təcrübəli əsgərlər Seymur Əmirov, Fərrux Ələbbasov və başqaları da səngərdə keçən günləri ömürlərinin ən şərəfli anları hesab etdiklərini dedilər.

# “İşğalçılar gücsüzlüyünü hiss edib geri çəkilir”



***Cəbhə bölgəsində yerləşən bu hərbi hissənin şəxsi heyəti də torpaqlarımızın keşiyində ayıq-sayıq dayanır, yurdumuzu yağılardan müdafiə edir. Qanlı müharibə dövründə hərbi hissədə xidmət edən zabit və əsgərlər hünər və rəşadət göstərərək erməni işğalçılarına qarşı vuruşublar. Fədakarlığına görə bir qrup əsgər və zabit ən yüksək fəxri ada layiq görülüb.***

Bu gün hərbi hissənin şəxsi heyətinin sıraları yeniləşsə də, qarşıda dayanan vəzifələr dəyişilməyib. Zabit və əsgərlər sələflərinin döyüş yollarını şərəf və ləyaqətlə davam etdirərək gecə-gündüz torpaqlarımızın keşiyində dayanırlar.

Polkovnik-leytenant İsgəndər Qiyasov şəxsi heyətin döyüş hazırlığından söz açaraq bildirdi ki, zabit və əsgərlərimiz ata-baba yurdumuzu erməni işğalçılarından müdafiə edirlər. “Döyüş hazırlığı yüksək olan Azərbaycan əsgəri hər dəqiqə, hər an torpaqlarımızı erməni işğalçılarından azad etməyə qadirdir. Atəşkəs rejimini pozan düşmən dəqiq zərbələrlə susdurulur. Düşmən Azərbaycan əsgərinin gücünü, qüdrətini hər an hiss edir. Qorxusundan susub geri çəkilir, döyüş meydanından qaçır. Ermənilər yaxşı bilirlər ki, üstündə müvəqqəti dayandıqları torpaqlar onların deyil. Ona görə də düşmən özünü Azərbaycan əsgərinin qarşısında gücsüz hiss edir, bədbin hisslərlə yaşayır. Zabit və əsgərlərimiz isə mövqelərində möhkəm dayanaraq erməni işğalçıları üzərində qələbə qazanmaq əzmindədirlər”.

Kapitan Vaqif Laçınovla birlikdə ön xəttə yollanırıq.

Bizi burada kapitan Sahib Dadaşov qarşılayır. Bildirir ki, ön xətdə, səngərlərdə ehtiyatlı hərəkət etmək lazımdır. Əgər kiçik bir ehtiyatsızlığa yol versən, düşmən gülləsinə tuş gələ bilərsən.

- Səkkiz ildən çoxdur ki, doğma ordumuzun sıralarında xidmət edirəm, - deyir kapitan. - Bu gün xalqımız torpaqlarımızı qorumağı bizə tapşırıb. Biz qüvvəmizi səfərbər edərək üzərimizə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışırıq. Düşmən mövqelərini daim nəzarətdə saxlayırıq. Atəşkəs rejimini pozmağa cəhd göstərən erməni işğalçıları elə həmin an cəsur əsgərlərimizin dəqiq zərbələri ilə susdurulur. Əminik ki, döyüşlər başlayarsa, qısa müddət ərzində torpaqlarımızı erməni qəsbkarlarından azad edəcəyik. Məqsədimiz və amalımız məhz budur; torpaqlarımızı düşməndən azad etmək, xalqımızı qələbə müjdəsi ilə sevindirmək.



Torpaqlarımızın keşiyində dayanan əsgərlərdən Toğrul Bəylərov, Ceyhun Vəliyev, Seyfulla Soltanov, Camal Kərimov, Cavid Aslanov, Vüsal Şahsuvarov, Rəşad Quluzadə və başqaları da bildirdilər ki, yurdumuzu erməni işğalçılarından qorumaq və azad etmək üçün hər an döyüşə hazırdırlar.

Yurdumuzun keşikçilərindən xoş təəssüratlarla ayrıldıq. Bizi yola salan gizir Mustafa Süleymanov bildirdi ki, xalqımız tam arxayın olsun, torpaqlarımız göz bəbəyimiz kimi qorunur!

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***7 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və minaatanlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 68 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen və Paravakar kəndlərində yerləşən mövqelərindən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə və Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərindən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi və Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tərtər rayonunun Yarımca, Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Cəvahirli, Qaraqaşlı, Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***8 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 78 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərindən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Yarımca, Çiləbürt, Göyarx, Qızıloba, Ağdam rayonunun Şuraabad, Kəngərli, Qaraqaşlı, Şıxlar, Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***9 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 92 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Şuraabad, Şirvanlı, Qaraqaşlı, Şıxlar, Sarıcalı, Cəvahirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# Məqsəd döyüş hazırlığını yüksəltməkdir

***Hərbi xidmət bilavasitə Vətənə xidmət deməkdir və bu sahədə bütün diqqət əsgərin hərbi biliklərə dərindən yiyələnməsini təmin etməyə yönəldilir. Hərbi xidmətə başladığı gündən gənc əsgərə atıcı silahların xüsusiyyətləri öyrədilir. Bu, "N" hərbi hissəsində də belədir.***

Zabitə görə, ön xətdə xidmətə başlayan əsgərə daha çox diqqət yetirilməlidir. Belə ki, burada əsgər öz silahı ilə olduqca düzgün davranmağı bacarmalıdır. Hər biri əl qumbarasını atmağı, həm də şərti hədəfə atmağı mükəmməl öyrənməlidir. Təbii ki, əsgər ön xətdə silahdan bacarıqla istifadə olunmasının zəruriliyini yaxşı başa düşməlidir. Digər tərəfdən, əsgərlərə təkcə öz silahını deyil, hərbi hissənin sərəncamında olan təmas xəttinə nisbətən yaxın yerlərdə keçirmək məqsədəuyğundur. Qoy düşmən zabit və əsgərlərimizin nəyə qadir olduğunu görsün. Bayaq dediyim kimi, Azərbaycan əsgəri bütün atıcı silahlardan məharətlə istifadə etməyi bacarır. Təbii ki, bu, onun "gözünün odunu alır", işğal etdiyi torpaqlardan geri çəkilməli olduğunu dərk edir.

Zabit maraqlı, bəlkə də vacib bir məsələni də bildirdi: gecə təlimləri həm əsgərin döyüş hazırlığı üçün vacibdir, həm də düşmənə psixoloji təsir kimi. Belə ki, müharibə şəraitində düşmənin həmlə, yaxud hücumu, əsasən, gecə vaxtlarına təsadüf edir və əsgərlərə təlimlərdə məhz bu şəraitdə davranma üsulları aşılanmalıdır. Biz bunu vaxtaşırı həyata keçiririk.



Polkovnik-leytenant Oruc Abdullayev bizimlə söhbətində bildirdi ki, gənc əsgərlərin əksəriyyəti orta məktəb məzunudur. Biz əsgərlərin hər biri ilə fərdi söhbət aparır, onların bilik səviyyəsini, müəyyən mənada xarakterini öyrənməyə çalışırıq. Bu, olduqca vacib məsələdir və hər bir əsgərin xarakterik xüsusiyyətlərinin öyrənilməsində mühüm rol oynayır.

bütün silahlardan istifadə edilməsi qaydalarını, atış xüsusiyyətlərini də öyrədirik. Bu, hərbi hissədə döyüş tapşırığının düzgün yerinə yetirilməsini təmin edir.

Zabit Oruc Abdullayev sözünə davam edərək dedi ki, hərbi hissə miqyasında təlimlərin harda keçirilməsi də, müəyyən mənada önəmli rol oynayır. Belə ki, düşmən də keçirdiyimiz təlimləri görür, müşahidə edir. Belə təlimləri

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# İstehkamçıların peşəkarlığı

***İstehkamçılar haqqında belə bir deyim var: "İstehkamçılar yalnız bir dəfə səhv edirlər". Amma hazırlıqlı, peşəkar və bacarıqlı olanda heç o səhvə də yol verilməz. Şahidi və iştirakçısı olduğum təlimin keçirilməsində də əsas məqsəd mühəndis istehkamçıların səriştəsini daha da artırmaqdır.***

- Təlimə hərbi hissənin bütün şəxsi heyəti, həmçinin texnika və avadanlıqlar cəlb olunub, - deyə kapitan Nəcməddin Savalanov bildirdi. - Təlimlər zamanı zabit və əsgərlərimiz qarşıya qoyulan bir çox mühüm tapşırıqları yerinə yetirirlər. Dərs və məşğələlər ardıcıllıqla keçirildiyinə görə şəxsi heyət döyüş vərdişlərini mənimsəməkdə çətinlik çəkmir. Hər bir zabit, hər bir əsgər öz vəzifə borcunu yaxşı bilir. Buna görə də təlim zamanı qarşıya qoyulan tapşırıqlar vaxtında və yüksək peşəkarlıqla yerinə yetirilir.

Hündür dərənin ətəyində təlim keçən istehkamçılara yaxınlaşırıq. Onlar məşğələnin mövzusuna uyğun olaraq məşq edir, döyüş hazırlıqlarını artırırlar.

Bizi burada maneəyaratma manqasının komandiri əsgər Asif Quluyev qarşılayaraq bildirdi ki, şəxsi heyət döyüşən qüvvələrin hərəkəti üçün keçid açmağı öyrənir. Əsgərlərimiz belə tapşırıqları dəfələrlə icra ediblər. Ona görə də bacarıqlıdırlar. Nə qədər bilsək də, yenə də öyrənirik, təcrübə və səriştəmizi artırırıq. Yaxşı deyiblər ki, təlimdə nə qədər tər töksən, döyüşdə bir o qədər az qan tökərsən.



Hər dəfə məşq etdikcə, dərs keçdikcə döyüş vərdişlərini daha mükəmməl mənimsəyirik. Ona görə də təlim zamanı qarşıya qoyulan tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilir. Səhra şəraitində keçirilən təlimlərdə dəfələrlə iştirak etmişik. Buna görə də biz bacarıqlı və təcrübəliyik.

Səyyar maneəyaratma manqasının əsgərlərindən Mürvət Heybətli, Kamran Zeynalov, Orxan Fətullayev, Caməddin Allahverdiyev, Nurlan Seyidzadə, Nemət Seyidov və başqaları təlimlərdə fəal iştirak edirlər.

Manqanın əsgərlərinə uğurlar arzulayıb bizi gözləyən şəxsi heyətin yanına yollanırıq. İstehkamçıların təlimi davam edir, əsgərlər keçid açmaq üçün ərazini minalardan təmizləyirlər. Hərəkətlərindən hiss olunur ki, onlar artıq peşəkardırlar.

**V. MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Fransanın "Contrepoints" portalında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalə yayılıb

***Fransanın "Contrepoints" portalında "Dağlıq Qarabağ münaqişəsi: Fransa vasitəçi kimi rolunu yerinə yetirməlidir" adlı məqalə yerləşdirilib.***

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənsitan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixindən, onun Cənubi Qafqaz regionunun inkişafına vurduğu ziyandan, problemin həlli istiqamətində dünya birliyi tərəfindən kifayət qədər səy göstərilməməsindən bəhs edilir. Dağlıq Qarabağ münaqişəsinin daim gündəmdə olduğu diqqətə çatdırılır.

Məqalədə bildirilir ki, Azərbaycan çoxsaylı maraqların toqquşduğu Cənubi Qafqaz kimi həssas bir regionun aparıcı dövlətidir. Zəngin enerji resurslarına malik, əhalisinin əksəriyyətini müsəlmanların təşkil etdiyi Azərbaycan Avropa ilə Asiyanın qovuşuğunda yerləşir. Ermənistanın Azəbaycana qarşı ərazi iddiaları ilə başlayan Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqaz regionunun inkişafına ciddi maneə yaradır.

Müəllif ATƏT-in Minsk Qrupunun 20 ildən artıqdır bu problemin həllində vasitəçilik etməsinə baxmayaraq, onun fəaliyyətinin indiyədək nəticəsiz qaldığını qeyd edir. Məqalədə ikili standartlardan da bəhs edilərək beynəlxalq birlik tərəfindən Ukrayna məsələsində nümayiş etdirilən mövqenin ərazisinin 20 faizi işğal altında olan Azərbaycana münasibətdə göstərilmədiyi vurğulanır.

Qeyd edilir ki, may ayında qondarma "Dağlıq Qarabağ Respublikası" "prezidenti"nin Fransaya səfəri və bu səfər çərçivəsində ölkənin bir sıra şəhərləri ilə "dostluq xartiyaları"nın imzalanması rəsmi Parisin Minsk qrupunun həmsədri kimi münaqişənin həllində vasitəçilik roluna kölgə salır.

Müəllif vurğulayır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də Ukrayna məsələsi kimi bütün Avropaya bəlli olmalıdır. Bu gün Azərbaycan xalqı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq səviyyədə hökm sürən durğunluğu görür.

Ordu və cəmiyyət

# "Azərbaycan Ordusu torpaqlarımızı azad etmək gücündədir"

Müsahibimiz Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Strateji Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirovdur.



***- Elman müəllim, Sovet dönəmində azərbaycanlı gənclərin bilərəkdən tikinti, inşaat yönümlü hərbi hissələrə cəlb edilməsi ilə onlara döyüş vərdişlərinin aşılanmasının qarşısı süni surətdə alınırdı. Bu cür münasibətlər hansı tarixi köklərdən qaynaqlanırdı?***

- Tamamilə haqlısınız. Həqiqətən də, həm çarizmin, həm də Sovet İttifaqının tərkibində olduğumuz dövrdə Azərbaycanın milli hərbi kadrlarının yetişdirilməsi üçün ciddi problemlər yaranıb. Milli hərbi kadrların formalaşması istər çarizm, istərsə də Sovet dövləti üçün sanki təhlükə mənbəyi idi. İmperiya qüvvələri hesab ediblər ki, müsəlman xalqlarının əlinə silah vermək nəticə etibarilə sonradan onların özləri üçün müəyyən problemlər yarada bilər. Əslində ayrı-seçkilik müxtəlif dinlərin daşıyıcılarına qarşı fərqli mövqedən irəli gələn yanaşma tərzi idi. Biz türkük, türk hər zaman döyüşkənliyi ilə seçilib, türk at belində olub, genində ənənə və qan yaddaşı var. Mənim mövqeyim belədir ki, bəlkə də bizim əcdadlarımızda döyüşkənlik, əzmkarlıq və əsgəri şücaət ənənəsi olmasaydı, bizdən çəkinməzdilər. Hesab edirəm ki, Sovet dönəmində də azərbaycanlı gənclərin yalnız inşaat batalyonuna göndərilməsinin kökündə bu motivlər dayanıb. "Azərbaycanlılara silah və hərbi texnikanın sirlərini öyrətmək olmaz". Bax, bu düşüncə tərzi çox maraqlıdır ki, müxtəlif rejimlərin hər birində mövcud olub. Yadımdadır, mən özüm hərbi xidmətə gedəndə boyum hündür idi. Deyirdilər ki, sən mütləq desant qoşunlarına düşəcəksən. O zaman oraya düşmək və müəyyən vərdişlərə yiyələnmək prestij sayılırdı. Lakin məni Moskva şəhərində inşaat batalyonuna göndərdilər. Təsəvvür edin, Bakı Dövlət Universitetinin tarix fakültəsinə imtahan vermiş, kifayət qədər savadlı bir gənc inşaat batalyonunda 2 il xidmət etməli oldu. Sonralar bu qənaətə gəldim ki, heç bir şey təsadüf deyil, məqsədyönlü siyasətin nəticəsidir. Buna görə də müstəqilliyin ilk illərində üzləşdiyimiz ən böyük problemlərdən biri məhz peşəkar hərbi kadrların çatışmazlığı idi. Müharibə vəziyyətində olan, ərazisi işğala məruz qalan bir dövlətdə bu, dəhşət doğuran fakt idi...

***- Bildiyimiz kimi, ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan müasir Azərbaycan Ordusunun ilkin inkişaf mərhələsi imperiyanın sərt qanunlarının hökmran olduğu dövrdə - Sovet dönəmində təşəkkül tapdı. Məhz görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda hərbi quruculuq məsələlərinə böyük önəm verilib, bu sahədə gələcəyə hesablanan uğurlu addımlar atılıb...***

- Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra artıq Azərbaycanın hərbi siyasətində köklü dəyişikliklər baş verdi. İlk növbədə, ordu quruculuğu məsələsi prioritet məsələ kimi qarşıya qoyuldu. Bu sahədə ən mühüm dönüş nöqtəsini - 1993-cü il noyabrın 2-ni xüsusi qeyd etmək olar. Həmin gün ulu öndərin xalqa müraciətində ilk dəfə bütün həqiqətlər etiraf edildi. Orduda vahid komandanlığın olmaması, kütləvi fərarilik, hərbi qarşıdurmalar, özbaşınalıqlar ordu quruculuğunda ciddi problemlər doğurmuşdu. Əslində ümummilli liderimiz Azərbaycana rəhbərlik etdiyi ilk dövrlərdə də hərbi quruculuq məsələlərinə xüsusi yanaşma mövqeyi nümayiş etdirmişdi və 1971-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail olmuşdu. Sonralar ulu öndər qeyd edib ki, bu, zavod, fabrik açmaq qədər asan məsələ deyildi. Çünki Sovetlər birliyində formalaşmış bir ənənə var idi. Biz yuxarıda bu məsələlərə geniş toxunduq. Yalnız slavyan ölkələrində (Rusiyada, Ukraynada, Belorusiyada və s.) belə hərbi məktəblər açıla bilərdi. Çoxlu komissiyalar gəldi və əsaslandırmağa çalışdılar ki, Azərbaycanda hərbi təmayüllü məktəbə ehtiyac görülmür. Ulu öndər güclü təzyiqlərin öhdəsindən bacarıqla gələrək məqsədinə nail oldu. Bu strateji məsələ idi... Bu insanın dahiliyi ondadır ki, 1971-ci ildə o, düşünmüşdü ki, Azərbaycan nə vaxtsa, müstəqil olacaq. O, 2003-cü ildə Hərbi Liseyi ziyarət edərkən, bütün bu həqiqətləri bir daha səsləndirmişdi.



Yuxarıda qeyd etdiyimiz kimi, ulu öndərin ikinci dəfə hakimiyyətə gəldiyi ilk vaxtlardan ordu quruculuğu sahəsində atdığı qətiyyətli addımlar - cəbhə xəttinə səfərlər, müdafiənin təşkili, orduda şəxsi heyətin döyüş ruhunun artırılması və s. orduda əsaslı dönüş yaratdı. Xüsusilə, 1994-cü il yanvarın 5-də strateji əhəmiyyətli bir məntəqənin - Horadizin erməni təcavüzkarlarından geri alınması hərbi hissələrimizdə hökm sürən inamsızlığa son qoydu. 1994-cü ilin əvvəllərində Beyləqan, Tərtər, Goranboy istiqamətlərində aparılan uğurlu hərbi əməliyyatlar bir daha onu göstərdi ki, məhz ulu öndər Heydər Əliyevin komandanlığı altında ordumuz artıq formalaşıb. Bir çoxlarına böyük rəhbərin atdığı addımlar qeyri-mümkün görünürdü. Bu məqamda Albert Eynşteynin bir deyimini xatırlatmaq istəyirəm. O deyirdi ki, bir şeyin qeyri-mümkün olduğunu hər kəs bilir, amma bunu bilməyən kəşf eləyir. Heydər Əliyev üçün qeyri-mümkün olan bir məsələ yox idi.

Ulu öndər cəbhə bölgəsində olarkən ona məruzə olunur ki, düşmən sizin burada olduğunuzdan xəbərdardır. Buna baxmayaraq, o əsgərlərlə görüşünü tamamlamayana qədər ərazini tərk etmir, onlara öz tövsiyələrini, tapşırıqlarını verir. Ən başlıcası Heydər Əliyev Azərbaycan Ordusunu formalaşdırdı və xalqın orduya inamını yarada bildi.

Ulu öndər onun fərqindəydi ki, Azərbaycan Ordusu modernləşməlidir. Orduda peşəkarlığın artması, qardaş Türkiyədə Azərbaycan hərbçilərinin təhsil alması, Silahlı Qüvvələrimizin NATO standartlarına uyğunlaşdırılması və nəhayət, 1994-cü il mayın 4-də NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulmaqla Azərbaycan Ordusunun NATO-ya inteqrasiyasının əsası qoyuldu. Ordumuz nizami və ən mürəkkəb şəraitlərdə çıxış yolu tapa bilən orduya çevrildi. Ermənistan tərəfi artıq anlayırdı ki, Azərbaycan istənilən vaxt müharibəyə başlaya bilər və bu müharibədə Ermənistan məğlubiyyətə uğrayar. Dövlətimiz iqtisadi baxımdan gücləndikcə, iqtisadi islahatlar həyata keçirildikcə və ölkədə siyasi sabitlik möhkəmləndikcə, ordumuz daha da qüdrətlənirdi. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev ümummilli liderin siyasi kursunu, həmçinin ordu quruculuğu siyasətini inamla davam etdirir. Azərbaycan nəinki bu gün ən müasir silahlarla təchiz olunur, hətta özü ən müasir silahların istehsalçısına çevrilib.

***- Silahlı Qüvvələrimizdə şəxsi heyətin ruh yüksəkliyi, aparılan əhəmiyyətli islahatlar, ardıcıl olaraq keçirilən irimiqyaslı hərbi təlimlər ordunun torpaqlarımızı erməni qəsbkarlarından hər an azad etməyə hazır və qadir olduğunu bir daha göstərir. Respublikamızın tanınmış politoloqu kimi, Azərbaycanda ordu quruculuğunun müasir inkişafı ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı.***

- Yuxarıda qeyd etdiyim kimi, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ulu öndərin əsasını qoyduğu müasir ordu quruculuğu prosesi bu gün ən uğurlu mərhələsini yaşayır. Təkcə hərbi büdcəmizə diqqət etsək, bu qənaətə gəlmək olar ki, Azərbaycan dövləti ordu quruculuğuna necə böyük əhəmiyyət verir. Hazırda ölkənin hərbi büdcəsi təxminən 5 milyard dollara yaxındır. Bu da bütün Ermənistanın büdcəsindən 2 dəfədən də artıqdır. Eyni zamanda ordumuz ən müasir silahlarla təchiz olunur. Müxtəlif beynəlxalq təşkilatlar, ermənipərəst qüvvələr bəzən Azərbaycanı ittiham edirlər ki, silahlanmaya bu qədər böyük xərc ayırmaqla, əslində regional təhlükəsizliyə təhdid yaradır. Amma cənab Prezident dəfələrlə qeyd edib ki, siyasətimizin kökündə konkret olaraq ərazilərimizin 20 faizinin Ermənistanın işğal aktına məruz qalması dayanıb. Biz bu münaqişənin dinc yolla həllini istəyirik, lakin bu, heç bir nəticə vermir. Cənab Prezident təəssüf hissiylə bildirir ki, həmsədr dövlətlərin rəhbərləri status-kvo desələr də, bundan irəli gələn addımlar atmırlar. Nə qədər ki, işğala son qoyulmayıb, ordu quruculuğu prioritet məsələ kimi Azərbaycanın dövlət rəhbərliyinin diqqətində olacaq. Ölkə Prezidenti cənab İlham Əliyevin ordu quruculuğuna xüsusi diqqəti, dəfələrlə cəbhə bölgəsində olması, hətta 2011-ci ildə öz ad gününü evdə rahat şəkildə deyil, cəbhə xəttində, əsgər və zabitlərin yanında qeyd etməsi, hesab edirəm ki, Prezidentin şəxsi nümunəsi idi. Prezidentin şəxsi nümunəsinin çox böyük rolu və əhəmiyyəti var. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun apardığı islahatlar nəticəsində ordumuzun fiziki, mənəvi-psixoloji və döyüş qabiliyyəti yüksək səviyyədədir. Biz insanlarla ünsiyyətdə olarkən onlar ordumuzun hazırkı durumu ilə bağlı ölkə Prezidentinə, Müdafiə nazirinə minnətdarlıqlarını ifadə edirlər. Artıq adamlarda tam rahatlıq yaranıb ki, övladları Vətəni qoruyur, əsl kişi kimi xidmətlərini başa vurub ailələrinə, əzizlərinin yanına qayıdacaqlar. Onlar əmindirlər ki, ordumuzda hec bir neqativ hal baş vermir.

Ordu quruculuğu məsələləri təkcə döyüş ruhunun yüksək olması və müasir silahlarla tənzimlənmir. Burada dahi sərkərdə Suvorovun məşhur kəlamı yada düşür. O deyirdi ki, təlimdə nə qədər çox tər töksən, döyüşdə o qədər az qan tökərsən. Son vaxtlar Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növlərində irimiqyaslı hərbi təlimlər keçirilir. Ən başlıcası, bu sahədə xüsusi peşəkarlığı olan qardaş Türkiyə Respublikasının Silahlı Qüvvələri ilə birlikdə keçirilən təlimlər təcrübə mübadiləsi baxımından çox əhəmiyyətlidir. Keçən ilin iyul-avqust aylarında baş verən hadisələr onu göstərdi ki, Azərbaycan Ordusunda aparılan islahatlar artıq öz bəhrəsini verməkdədir. Düşmən atəşkəsi pozaraq müxtəlif həmlələrə, təxribatlara əl atdı və nəticədə böyük itkilərlə geri çəkilməyə məcbur oldu. Bu artıq Azərbaycan əsgərinin öz sözünü deməsi idi.



***- Bu gün Ermənistanda əhali kütləvi şəkildə ölkəni tərk edir. Bunun çoxsaylı səbəblərindən biri də ordumuzun gücüdür...***

- Bəli, Ermənistan əsl böhran yaşayır. Hətta ölkəni o qədər insan tərk edir ki, buna erməni ziyalıları "ağ genosid" deyirlər. Yəni faktiki olaraq heç kim onları öldürmür, amma şəhərlər boşalır. Bunun səbəbini erməni sosioloqları axtarıblar. Çoxsaylı səbəblərdən biri də Azərbaycanın öz torpaqlarının işğalı ilə heç zaman barışmayacağı reallığıdır. Sürətlə güclənən ordumuz bir gün torpaqlarımızı hərbi yolla azad etmək gücündədir və bu güc ermənilərdə vahimə doğurmaya bilməz.

***- Elman müəllim, Ali Baş Komandan dəfələrlə qeyd edib ki, bu münaqişənin həll edilməsinin iki yolu var: sülh və müharibə.***

- Azərbaycan Prezidenti cənab İlham Əliyev hər zaman münaqişənin danışıqlar yolu ilə həllini üstün sayır. Eyni zamanda, danışıqların da limiti var. Ermənistan faktiki olaraq beynəlxalq ictimai fikri aldadır ki, guya sülhpərvər dövlətdir və danışıqlar yolu ilə münaqişəni həll etmək istəyir. Amma Ermənistanın məqsədi münaqişəni həll etmək deyil. Cənab Prezident açıq şəkildə qeyd edir ki, Ermənistan əsgərinin Azərbaycanın işğal altındakı Ağdam ərazisində nə işi var ki, o da öldürülür? Bundan sonra da istənilən təxribata Azərbaycan Ordusu qətiyyətlə cavab verəcək. Bəli, Azərbaycan dövlətinin mövqeyi ondan ibarətdir ki, biz danışıqlar xəttinə, sülh yoluna sadiqik. Əks təqdirdə müharibə qaçılmazdır.



***- Ölkənin kütləvi informasiya vasitələrinin Silahlı Qüvvələrimizlə əlaqələri barədə nə deyə bilərsiniz? Sizcə, mətbuatla münasibətlərin, dövlət sirlərinin qorunması, qarşılıqlı anlaşma, şəffaflıq və dəqiqlik prinsipləri əsasında qurulması üçün hansı addımlar atılmalıdır?***

- XXI əsr informasiya əsridir. İnformasiya təhlükəsizliyi mühüm əhəmiyyət kəsb edir. Mən bu yerdə alman ekspertlərinin bir fikrini söyləmək istəyirəm. Deyirlər ki, vacib informasiyaya malik olmaq hakimiyyətə malik olmaq deməkdir. Vacib informasiyanı qeyri-vacib informasiyadan ayırmaq isə ikiqat hakimiyyətə malik olmaq deməkdir. Vacib informasiyanı yaymaq və susmaq qabiliyyəti bu üçqat hakimiyyətə malik olmaq deməkdir. Keçən il iyulun sonu, avqustun əvvəllərində Ermənistan-Azərbaycan sərhədlərinin təmas xəttində baş verən hadisələr onu göstərdi ki, informasiya təhlükəsizliyi sahəsində boşluqlar vardır. Xüsusilə, həmin vaxt bəzi elektron medianın qeyri-peşəkarlıq nümayiş etdirmələri ona gətirib çıxartdı ki, müharibə şəraitində olan ölkəmizin informasiya təhlükəsizliyi pozuldu. Bununla bağlı Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə mətbuat təmsilçiləri və redaktorların iştirakı ilə geniş müşavirə keçirildi. Bu müşavirədə KİV qarşısında ciddi məsələlər qoyuldu. Bir daha diqqətə çatdırıldı ki, müharibə şəraitində hərbi yönümlü informasiyaları hazırlayarkən son dərəcə ehtiyatlı olmaq lazımdır. Çünki hər zaman düşmənin təxribat maşını işlək vəziyyətdədir. Müşavirədə müzakirə olunan məsələlərin həlli ilə bağlı ölkə Prezidentinin xüsusi sərəncamı oldu. Ordu və informasiya təhlükəsizliyi məsələləri bir-biri ilə sıx bağlı olan məsələlərdir.

***- Bu günlərdə Silahlı Qüvvələrin Hərbi Akademiyasında "Hərb elminin inkişaf perspektivləri" mövzusunda keçirilən birinci respublika elmi-praktik konfransında geniş məruzə ilə çıxış etmisiniz. Ordu quruculuğu tarixində ilk dəfə keçirilən bu elmi konfransın nəticələri və əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

- Əvvəlcə onu qeyd etmək istəyirəm ki, konfransın keçirilməsi Azərbaycanın elm sahəsində hərb elminin də əhəmiyyətli rolunu bir daha təsdiq etdi. Hərbi mövzuya həm elmi, həm də analitik yanaşma olmalıdır. Bizim hərb sahəsində elmi kadrlarımızın hazırlığı məsələləri mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Hərbi Akademiyanın üzərinə böyük məsuliyyət düşür. Akademiyanın rəhbərliyi Ali Baş Komandanın və eyni zamanda Müdafiə nazirinin tapşırıq və göstərişlərindən çıxış edərək, elmi-hərbi əhəmiyyəti olan bir tədbir keçirdi. İlk dəfə bu konfransın keçirilməsi Azərbaycan elmində tarixi hadisə idi. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun çıxışı konfransın ümumi işinə böyük fayda verdi. Akademiyanın rəisi general-leytenant Heydər Piriyevin məruzəsi hərbi quruculuq məsələlərinə elmi-analitik yanaşma baxımından əhəmiyyətli oldu. Gələcəkdə də dünyanın müxtəlif ölkələrindən, xüsusilə, region ölkələrindən nüfuzlu hərbi ekspertlərin iştirakı ilə belə tədbirlərin keçirilməsi ölkəmizdə hərb elminin problemləri ilə bağlı geniş fikir mübadiləsi aparmağa imkan verəcəkdir.

***- Elman müəllim, söhbətimizi ənənəvi sualla bitirmək istəyirəm. Azərbaycan Ordusunun əsgərinə sözünüz, arzunuz...***

- Biz Azərbaycan Ordusunun əsgər və zabiti ilə fəxr edirik. Onlar ən müqəddəs missiyanı - Vətəni qorumaq vəzifəsini yerinə yetirirlər. Əsgərlərimizə cansağlığı, torpaqlarımızın azadlığı naminə xidmətlərində uğurlar arzulayıram. Arzu edirəm ki, Azərbaycan əsgəri ruh yüksəkliyi, döyüşkənliyi ilə ata-babalarının ənənələrinə sadiq qalaraq, torpaqlarımızı düşməndən geri alsın və üçrəngli bayrağımızı azad edilən ərazilərimizdə dalğalandırsın.

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### ASN Almaniyada yaşayan azərbaycanlıları Avropa Oyunlarının açılış mərasimini birlikdə izləməyə dəvət edir




Avropa səbirsizliklə "Bakı-2015"-in açılış mərasimini gözləyir.

Azərbaycan Tələbə Şəbəkəsi Oyunlara olan yüksək marağı nəzərə alaraq, Almaniyanın paytaxtı Berlində "Bakı-2015"-in açılış mərasimini bu ölkədə yaşayan həmyerlilərimizlə birlikdə izləməyi planlaşdırır. Açıq havada yerləşdiriləcək böyük ekranda qonaqlar iyunun 12-də ilk Avropa Oyunlarının açılış mərasimini birlikdə izləmək imkanı əldə edəcəklər.

### Mobil telefonların batareyalarının ömrü 8 dəfə artacaq



Müasir mobil telefonların ən böyük problemi batareyaların enerjisinin tez bitməsidir.

AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Bob Rohparvar adlı bir elektrik mühəndisi tərəfindən təkmilləşdirilən aparat batareya ömrünü 8 dəfə artırır.

Batareya üzərinə taxılaraq istifadə edilən aparatın bu ilin sentyabrından bazara çıxarılacağı gözlənilir.

### Türkiyənin yeni parlamenti dörd siyasi partiya ilə formalaşacaq




Xəbər verdiyimiz kimi, iyunun 7-də Türkiyə Böyük Millət Məclisinə keçirilmiş növbəti seçkilərə dair səsvermənin ilkin nəticələri Anadolu agentliyi tərəfindən açıqlanıb.

Ankaradan verilən məlumatda bildirilir ki, Ədalət və İnkişaf Partiyası (AKP) səslərin 40,8 faizinə sahib olmaqla irəlidədir. Cümhuriyyət Xalq Partiyası səslərin (CHP) 25,11 faizini, Millətçi Hərəkat Partiyası (MHP) isə 16,4 faizini toplayıb. Xalqların Demokratik Partiyası (HDP) isə seçicilərin təxminən 12,91 faizinin etimadını qazana bilib.

Türkiyə qanunlarına görə, Prezident Rəcəb Tayyib Ərdoğan yeni hökuməti qurmaq üçün Ədalət və İnkişaf Partiyasına etimad göstərə bilər. AKP isə yeni hökuməti qurmaqdan ötrü Türkiyə Böyük Millət Məclisindən 276 səs almalıdır.

### Avropaya keçməyə çalışan 3500 immiqrant xilas edilib



Avropaya qeyri-qanuni yollarla keçməyə çalışan 3500 immiqrant sahil təhlükəsizlik qüvvələri tərəfindən xilas edilib.

AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Liviya ilə İtaliya arasında Siciliya kanalında qalan immiqrantlar Almaniya, İrlandiya, İngiltərə, İtaliya kimi ölkələrin həyata keçirdikləri əməliyyatla xilas ediliblər.

Qeyd edək ki, əvvəlki gün xilas edilən 650 immiqrant isə sabah Palermoya göndəriləcək.

### Çin: gəmi qəzası qurbanlarının sayı 406 nəfərə yüksəlib



Yanszı çayında baş vermiş gəmi qəzası qurbanlarının sayı 406 nəfərə çatıb. Səyahət gəmisindəki 36 nəfər itkin düşmüş sayılır.

AZƏRTAC "Vesti" informasiya agentliyinə istinadla xəbər verir ki, axtarış-xilasetmə əməliyyatlarında 3400 əsgər və 1700 polis əməkdaşı iştirak edir. Hazırda axtarışlara 250 əlavə gəmi və 2500 nəfər qoşulub.

Xatırladaq ki, Nankin şəhərindən Çunçinə gedən "Şərq ulduzu" səyahət gəmisi iyunun 1-də axşam saatlarında Xubey əyaləti ərazisində qəzaya uğramışdı. Güclü qasırğa nəticəsində gəmi əyilmiş və iki dəqiqə ərzində suya bataraq çevrilmişdi.

### Avstraliyanın xarici işlər naziri: İŞİD kimyəvi silah əldə etməyə can atır



Suriya və İraq ərazisində fəaliyyət göstərən İŞİD terrorçu qruplaşması kimyəvi silah əldə etməyə can atır. Bunu Avstraliyanın xarici işlər naziri Culi Bişop bildirib. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, nazirin sözlərinə görə, qruplaşma bu məqsədlə "Qərb dövlətləri də daxil olmaqla bütün ölkələrdən təcrübəli alim və mütəxəssisləri öz sıralarına çəkmək istəyir". Onlar artıq İraq ərazisində hücum əməliyyatları keçirərkən xlordan istifadə ediblər.

### Əsgər anaları Ermənistanda növbəti etiraz aksiyası keçiriblər



Ermənistanda qeyri-döyüş şəraitində həlak olmuş hərbçilərin valideynləri prezident iqamətgahı qarşısında növbəti etiraz aksiyası keçiriblər. Aksiyaya sakinlər də dəstək olublar. Valideynlər bu dəfə də övladlarının ölümünün səbəblərinin araşdırılmamasına etiraz ediblər.

Aksiya zamanı polis və iqamətgahın mühafizəçiləri etirazçıları uzaqlaşdırmağa cəhd edərkən tərəflər arasında insident yaşanıb. Etirazçılardan bir neçəsi yerə yıxılaraq özünü ölü əsgərə bənzədib. Polis aksiyanı dağıdıb, həbs olunanlar var. Qəzəblənən insanlar prezident Serj Sarkisyan, müdafiə naziri Seyran Ohanyanın əleyhinə şüarlar səsləndirib, övladlarının ölüm səbəbinin açıqlanmasını tələb ediblər. Nümayişçilər S.Ohanyanı orduda nizam-intizam yaratmağa, hərc-mərcliyi aradan qaldırmağa, əsgərləri yemək və geyimlə təmin etməyə çağırıblar.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Hərbi təhsil*

# Zabit şərəfini uca tutacaqlarına söz verdilər

## C.Naxçıvanski adına Hərbi Liseydə məzunların buraxılış mərasimi



***İyunun 8-də Cəmşid Naxçıvanski adına Hərbi Liseydə məzunların 43-cü buraxılışı keçirilib. Həmin gün məktəbin həyətində əsl bayram ovqatı hiss olunurdu. Yolların və sıra meydanının ətrafına bayraqlar düzülmüşdü, bir sözlə, burada əsl qələbəlik vardı. Tribunanın önündə məktəblə vidalaşacaq kursantlardan ibarət taqımlar bayram libasında düzülmüşdü. Hər kəsin üzündə sevinc və təbəssüm sezilirdi. Onlar artıq sentyabr ayından ölkəmizin müxtəlif ali hərbi məktəblərində təhsillərini davam etdirəcəkdilər. İlk hərbi təhsil aldıqları məktəblə vidalaşmaq isə deyəsən, onları qəribsədirdi. Axı üç il bir yerdə "ömür yaşayan" yeniyetmələr üçün ayrılıq da asan deyildi. Onlar bu təhsil ocağına doğma evləri qədər alışmışdılar...***



Sıra meydanının mərkəzindən "Düzlən!, Farağat, diqqət mərkəzə!" sədası ucaldı. Polkovnik Fuad Şərifzadə Hərbi Liseyin şəxsi heyətinin 43-cü buraxılış üçün düzüldüyü barədə məktəb rəisinə raport verdi. Raport qəbul olunduqdan sonra lisey rəisi kursantları salamladı və onları buraxılış münasibətilə təbrik etdi. Ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycanın Dövlət himni oxundu.

Tədbirdə ilk çıxış edən Hərbi Liseyin rəisi general-mayor Mirzə Almasov dedi:

- ...Məzunların buraxılış günü Hərbi Liseyin həyatında unudulmaz günlərdən biridir. Əsası 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş C.Naxçıvanski adına Hərbi Lisey Silahlı Qüvvələrimiz üçün zabit kadrlarının hazırlanmasında əvəzsiz rola malikdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Hərbi Lisey haqqında dediyi bu sözləri xatırlatmaq lap yerinə düşərdi. "Sizə səmimi deyirəm, Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax bu cür baxacağam". Bəli, biz bu gün də ümummilli liderimiz Heydər Əliyevi minnətdarlıq hissi ilə yad edirik. Silahlı Qüvvələr, eləcə də Hərbi Liseyimiz dahi rəhbərin siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısını daim hiss edir.





Məktəb rəisi məzunlarından 18 nəfərinin ali hərbi rütbəyə yüksəldiyini xüsusi olaraq qeyd etdi. Bildirdi ki, üç illik lisey təhsiliniz arxada qalıb. Buna baxmayaraq - insan doğma övladından ayrılarkən hansı hisslər keçirirsə, həmin duyğuları biz bu gün yaşayırıq.

Məzunlar adından söz alan kursant Rəvan Şərifov qeyd etdi ki, hələ qarşıda onları ciddi sınaq gözləyir. Liseydə aldıqları təhsilin hər zaman onların köməyinə çatacağını söyləyən məzun doğma torpaqlarımızı erməni işğalçılarından azad etmək üçün savadlı, bacarıqlı zabit kimi yetişməyin vacib olduğunu önə çəkdi. Vətən, dövlət, xalq qarşısında üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə və Hərbi Liseyin şərəfini hər zaman uca tutacaqlarına söz verdi.

Liseyin müəllimi Lələzar Həsənova məzunlara uğurlar dilədi və onlara Vətənə layiqli zabit olmağı arzuladı.

Kursant Nicat Kamilovun anası Nəsibə Şahıyeva övladının timsalında bütün məzunları təbrik etdi və çətin, şərəfli yolda kursantlara dözümlü, dəyanətli olmalarını tövsiyə etdi.

Mərasimdə kursantlara attestat, döş nişanı və xatirə albomu verildi. Liseyi fərqlənmə ilə bitirən kursantlara - Bayram Vəliyev, Kamran Qəribli və Rahib Mahmudluya təhsil rəmzlərini general-mayor Mirzə Almasov, liseyin məzunu olmuş polkovniklər Nazim Əhmədov və Rauf Dəmirov təqdim etdilər.



Tədbirdə yaşanan daha maraqlı məqamlardan biri də məzunların bayrağı 3-cü kursa təhvil vermələri oldu. Məzun Azay Abbasov tərəfindən bayrağın kursant İmran Nərimanova təntənəli şəkildə təqdim edilməsi coşqu ilə qarşılandı.

Məktəbin yaş kötüyünə məzunlar adından təhsildə birinci olmuş Bayram Vəliyev 2015-ci ilin rəmzi işarəsini vurdu.

Naxçıvanskilər hərbi orkestrin ifa etdiyi marşın sədaları altında sonuncu dəfə tribunanın önündən keçdilər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xarici hərbi xronika

### Böyük Britaniya döyüş lazeri hazırlayacaq

Böyük Britaniyanın Müdafiə Nazirliyi 2016-cı maliyyə ilində döyüş lazerinin hazırlanmasına 30 milyon sterlinq xərcləyəcək. Defens News-in məlumatına görə, bu layihənin işlənilməsinə nazirliyin hərbi elm və texnologiya laboratoriyası rəhbərlik edəcək. Britaniya hərbçilərinin verdiyi məlumata əsasən, layihənin gedişi zamanı lazer silahının bir neçə sisteminin hazırlanması da planlaşdırılıb. Hazırlanan yeni silahlar kompleksin tərkibinə daxil ediləcək və sınağı poliqonda həyata keçiriləcək.

### Anaerob qurğulu qayıq

Rusiya Hərbi Dəniz Donanmasının Komandanı admiral Viktor Çirkov 2018-ci ilə qədər anaerob qurğulu ilk submarinanın hazırlanacağı haqqında məlumat verib. Bu qurğu ilə 677 layihəli "Lada" sualtı qayıqları təchiz olunacaq. Daha sonra o bildirib ki, RF HDQ üçün anaerob qurğulu qayıqlar "Kalina" adını alacaq. Hazırda beşinci nəsildən olan "Kalina" sualtı qayıqlarının yeni layihəsi üzərində işlər aparılır. Bu qayıqlar havadan asılı olmayan enerji qurğusu ilə təchiz olunacaq. Qayıqların əsas üstün cəhəti onların su altında gizli qalmasındadır.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

# Silahlı Qüvvələr Gününə həsr olunmuş mahnı musabiqəsinin yarımfinal mərhələsinə start verilir

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, Gəncə Qarnizonu Zabitlər Evinin Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar Komitəsi ilə birgə keçirdiyi Silahlı Qüvvələrin yaranma gününə həsr olunmuş "Vətən uğrunda!" hərbi vətənpərvərlik mahnıları musabiqəsinin yarımfinal mərhələsinə start verilir.***




Müsabiqədə 18-35 yaş arasında olan, yaxşı vokal qabiliyyətinə və hərbi vətənpərvərlik mövzusunda mahnıları ifa etmək bacarığına malik hərbi qulluqçular və Azərbaycanın rayon və şəhərlərində, o cümlədən xaricdə yaşayan gənclər iştirak edirlər.

Tədbirin keçirilməsində əsas məqsəd milli mədəniyyətin, incəsənətin və hərbi ənənələrin təbliği ilə yanaşı, gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, ordu ilə cəmiyyət arasında əlaqələrin daha da möhkəmləndirilməsidir.

Müsabiqə iştirakçılarının hər birinin ifası respublikanın əməkdar artistləri Azərin və İlqar Muradov tərəfindən qiymətləndirilib. 17281 nəfərin iştirak etdiyi elektron səsvermə nəticəsində 13 ifaçı yarımfinalda iştirak etmək şansı qazanıb.

10-20 iyun tarixlərində Gəncə və Şəmkir şəhərlərində yarımfinal mərhələsi keçiriləcək. "Vətən uğrunda!" hərbi vətənpərvərlik mahnıları musabiqəsinə iyunun 25-də yekun vurulacaq. Qaliblərə fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim ediləcək və mükafata layiq görülən ifaçıların iştirakı ilə konsert proqramı təşkil olunacaq.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

### Birinci Avropa Oyunlarının açılış mərasiminin sonuncu sınaq tədbiri keçirilib



İyunun 6-da Bakı Olimpiya Stadionunda "Bakı-2015" birinci Avropa Oyunlarının açılış mərasiminin sonuncu sınaq tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə bir-birindən maraqlı anlar yaşanıb. Mərasim möhtəşəm atəşfəşanlıqla başa çatıb.

### İlk Avropa Oyunlarında iştirak edəcək azərbaycanlı idmançıların adları açıqlanıb

Baku 2015
1st EUROPEAN GAMES

"Bakı-2015" birinci Avropa Oyunlarında mübarizə aparacaq Azərbaycan idmançılarının adları açıqlanıb. AZƏRTAC Milli Olimpiya Komitəsinə istinadla xəbər verir ki, birinci Avropa Oyunlarında 291 idmançımız birincilik uğrunda mübarizə aparacaq. Güləş yarışlarında ölkəmiz tam heyətlə çıxış edəcək.Triatlon yarışlarında ölkəmizi üç, atletika yarışlarında 35 idmançı, qılıncoynatma yarışlarında 16, kayak və kanoe yarışlarında 7, velosiped idman yarışlarında 7, karate yarışlarında 12, kamandan oxatma yarışlarında 6, cüdo yarışlarında 18, taekvondo yarışlarında 8, boks yarışlarında isə 15 idmançı təmsil edəcək.

### "Rossiya 24": Azərbaycan idmançıları qarşılamağa hazırdır"




"Bakıda Avropa Oyunlarının açılışına sayılı günlər qalıb. Məşəl iyunun 12-də Olimpiya Stadionunda alovlandırılacaq. Şəhər 6 mindən çox idmançını və daha çox azarkeşi, idman pərəstişkarını qəbul etməyə hazırdır", - bu sözlər Dmitri Kaystronun "Rossiya 24" kanalının "Vesti" proqramı üçün hazırladığı reportajda deyilir. Reportajda qeyd edilir ki, birinci Avropa Oyunlarının məşəlinin Bakıya gətirilməsi möhtəşəm idman bayramının mühüm hadisələrindən biridir. Müasir texnika ilə təchiz edilmiş media mərkəzi də öz işinə başlayıb. Dünyanın bütün ölkələrindən olan jurnalistlər birinci Avropa Oyunlarını işıqlandıracaqlar.

### Rusiya komandasının heyətində dörd Olimpiya mükafatçısı yer alıb



"Bakı-2015" Birinci Avropa Oyunlarının atıcılıq yarışlarında Rusiyanı təmsil edəcək idmançılar müəyyənləşib. AZƏRTAC Rusiya Atıcılıq İttifaqına istinadla xəbər verir ki, Birinci Avropa Oyunlarının atıcılıq yarışlarına 16-sı kişi, 12-si qadın olmaqla, ümumilikdə 28 rusiyalı idmançı qatılacaq. Komandaya Olimpiya çempionları Aleksey Alipov və Olqa Kuznetsova rəhbərlik edəcəklər. Həmçinin, heyətdə Olimpiya Oyunlarının ikiqat bürünc mükafatçısı Vladimir İsakov və Vasiliy Mosin də yer alıblar. Qeyd edək ki, Birinci Avropa Oyunlarında atıcılıq yarışları iyunun 16-dan 22-dək Bakı Atıcılıq Mərkəzində keçiriləcək.

### İtaliyalı çimərlik futbolçusu: "Bakı-2015"-də hədəfimiz lider olmaqdır



"Bakı-2015"-də çimərlik futbolu maraqla izlənəcək yarışlardan biri olacaq. Səkkiz ölkənin komandası birincilik uğrunda mübarizə aparacaq. Liderliyə iddialı yığmalardan biri də İtaliya komandasıdır. Massimiliano Espositonun rəhbərliyi ilə bu komanda yarışlara ciddi hazırlaşır. İtaliyanın çimərlik futbolu üzrə milli komandasının üzvü Matteo Marrucci "Bakı-2015"-ə hazırlıqlar və ümumiyyətlə, komandanın uğurları barədə fikirlərini bölüşərək bildirib: "Bakıdakı yarışlarda hədəfimiz lider olmaqdır. Hər birimiz qalibiyyəti ürəkdən istəyirik. Lakin bizə bəllidir ki, yarışlar heç də asan keçməyəcək. Buna baxmayaraq, biz komanda olaraq, çəkinmədən mübarizəmizi davam etdirəcəyik".

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Ehtiyatda olan leytenant Qasımov Emil Elbrus oğluna 2007-ci ildə verilmiş (B № 081371) diplom itdiyi üçün etibarsız sayılır.

Abışov Nəsir Zahid oğluna verilmiş (MV № 054898) müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 491
Nüsxə 4600